UOT 32; 327; 94.
https://doi.org/10.30546/3006-0346.2025.3.87.516

# ERMƏNİ MİLLİYYƏTÇİLİYİNİN İDEOLOJİ ƏSASLARI

**FİDAN XƏLİLOVA**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Beynəlxalq münasibətlər və xarici siyasət" kafedrasının doktorantı*

*E-mail: phd.fidan.khalilova@gmail.com*
*ORCID 0000-0002-5874-119X*

Məlumdur ki, Ermənistan dövlətinin daxili və xarici siyasətində ideologiya faktoru ciddi təsirə malikdir. Bu səbəbdən,"Böyük Ermənistan"a nail olmaq uğrunda bir çox tarixi proseslərin əsas təkanverici qüvvəsi kimi erməni milliyyətçiliyinin ideoloji və nəzəri əsaslarını araşdırmaq onun müasir Ermənistanın siyasətində rolunu müəyyən etmək üçün əhəmiyyət kəsb edir. Odur ki, erməni milliyyətçiliyinin ideoloji təməlində dayanan bəzi təriqət və cərəyanların inkişaf yoluna nəzər yetirilməlidir. İlk növbədə hələ 1701-ci ildə qurulan Mxitarist təriqəti qeyd edilməlidir. Mxitarist Ordeninin ideoloji əsasları erməni millətçiliyinin yaranmasına zəmin yaradan elementləri ehtiva edir [10].

**Mxitarizm.** Mxitarizm erməni milliyyətçiliyinin əsasını qoyan ilk cərəyanlardan biri idi. Mxitarizm öz etnik dəyərlərini yeganə meyar olaraq müəyyən etmək mahiyyətini daşıyan etnik mərkəzçilik (etnosentrsizm) və fərqliliklərə qarşı duyulan qorxu (zenofobiya) əsasında formalaşmış bir ideologiya idi. İki-üç əsrlik bir dövr ərzində bu ideyalar radikal bir doktrina halına gəldi və erməni dövlətinin siyasi bazasına çevrildi [4, s.38-39]. Sivasda doğulmuş Mxitar Sebastasi 1700-ci ildə İstanbula gəlmiş və burada tələbələri ilə birlikdə 1701-ci ildə Erməni katolik ordeninin əsasını qoymuşdur.

Mxitar İstanbulda fəaliyyətini davam etdirərkən qriqoryan erməniləri tərəfindən təzyiqə məruz qalmışdır və fəaliyyətini daha məhsuldar bir mühitdə həyata keçirmək üçün tərəfdarları ilə birgə 1703-cü ildə Osmanlı İmperatorluğunu tərk edərək o zamanlar Venesiya Respublikasının hakimiyyəti altında olan Peloponnes yarımadasının cənub-qərb nöqtəsində Modonda bir monastır qurmuşdur. Mxitar və onun ardıcılları Benedikt Ordenini qəbul etdilər və 1712-ci ildə Papa XI Leo Klement tərəfindən rəsmi olaraq təsdiqləndilər. O vaxtdan mxitaristlər "erməni benediktinləri" adlandırılmağa başladılar. 1715-1718-ci illərdə baş vermiş Osmanlı-Venesiya Müharibəsində Modonun Osmanlıların əlinə keçməsindən sonra 1717-ci ildə Venesiya yaxınlığındakı Müqəddəs Lazar adasına köçdülər. Mxitar Sebastasinin fəaliyyəti 1749-cu ilə - ömrünün sonuna qədər burada davam etmişdir [1, s.23-41].

XVIII əsrdə "Xristian humanizmi və dini-teoloji ölçü baxımından zamandan kənara çıxan ekumenizm" ideyası ətrafında cəmləşən keşiş Mxitar və tələbələri, erməni mədəniyyətində özünü göstərən böyük yeniliyin əsasını qoydular, XIX əsrdə isə daha geniş fəaliyyətə başladılar. Bəzən şübhə ilə qarşılanan bu yeni formasiya həm erməni, həm də qeyri-erməni alimləri tərəfindən mənfi qiymətləndirilmiş, lakin əksər hallarda birliyin fəaliyyəti ermənilər tərəfindən heyranlıqla qarşılanmışdır [2, s.69]. Maraqlıdır ki, erməni gənclərini erməni millətçiliyi ətrafında birləşdirməyi planlaşdıran baş keşiş Mxitarın yaratdığı təriqət Avropa şəhəri olan Venesiyada yerləşirdi. Venesiya ermənilərin ticarət məqsədilə tez-tez getdikləri şəhər idi. Onun Roma Katolik Kilsəsinə yaxın olması Venesiyada belə bir fəaliyyətin qurulmasına səbəb ola bilərdi, lakin keşiş Mxitarın burada öz işini böyük bir sərbəstliklə yerinə yetirdiyini söyləmək çətindir [16, s.39-40].

Əslində, keşiş Mxitarın həm İtaliya hökuməti, həm də Roma Katolik Kilsəsi ilə yaxşı əlaqələri sayəsində Venesiyada qala bildiyi, lakin onların icazəsi ilə işlərini yerinə yetirdiyi bildirilir.Bu gün də Venesiyada 19-cu əsrin əvvəllərində qurulan Mxitarist monastırı və mühüm erməni mədəniyyət mərkəzi kimi kimliyini qoruyub saxlayır [8]. Ermənilərin milli tarixi haqqında məqalələr dərc etməklə erməni millətçiliyinin yaranmasında böyük rolu olan abbat Mxitar və tələbələrinin erməni mədəniyyətinə verdiyi ən mühüm töhfələrdən biri Qərb mədəniyyəti ilə daim təmasda olmaları və yaxşı əlaqələr yaratmalarıdır. İttifaqın bir növ monastır olmasından irəli gələn məhdudiyyətlərə baxmayaraq Mxitar və tələbələri ilk mifoloji əsərlərdən tutmuş yaxın tarixə qədər əsərlərə çıxış imkanı əldə etmiş, Avropa ədəbiyyatı ilə də ciddi maraqlanmışlar. Mxitar bu siyasəti davam etdirərkən xüsusilə gənc ermənilərə müraciət edir və onlardan yaxşı nəticə ala biləcəyinə inanırdı.

Bunu edərkən o, öz ardıcılları arasında varlı-kasıb ayrı-seçkiliyi qoymur, bacardıqca bütün erməni icmasının sevgisini qazanmağa çalışırdı. [8, s.45-46]. Ona görə də bu əsərlər sonrakı illərdə həm erməni icması, həm də Mxitar və onun tələbələri üçün milli transformasiyaya səbəb olan qazanc kimi qiymətləndirilmişdir [2, s.70-71].

Keşiş Mxitarın əsəri "Erməni lüğəti" mənasını verən "Hayqazyan Parkirk" adlanır. O, ermənilər tərəfindən erməni humanizmini göstərən bir əsər kimi qiymətləndirilirdi. Hayqazyan erməni lüğətidir və bu lüğətdə ermənicə sözlərlə yanaşı bəzi türk sözləri ilə izah edilirdi [9]. Birinci cildi 1749-cu ildə işıq üzü görən bu əsər birliyin nəşr etdiyi kitabların birbaşa erməni dili və millətçiliyi ilə bağlı olmasının, ermənilərdə milli şüuru formalaşdırmağa yönəlmiş olmasının ən yaxşı sübutlarından biridir. Əslində, Venesiya monarxlarından Haqopos İsa Vedentsin 1874-cü ildə çapdan çıxmış "Ermənistan və ermənilər" adlı kitabı da sözügedən şüurun oyanmasına yönəlmiş əsər kimi qiymətləndirilə bilər [17, s.179-180]. Mxitarın zehnində erməni kilsəsinin prinsiplərini bütün dünyaya yaymaq kimi məqsədləri var idi. Çünki onun fikrincə, məqsədlərin reallaşması o zaman mümkün olacaq ki, ermənilər dini cəhətdən vahid çətir altında birləşəcəklər, bu da öz növbəsində ermənilərin sosial birləşməsini zəruri edəcəkdir [14].

Digər tərəfdən, Qərbin humanizm anlayışından doğan "milli birlik ideyasına sadiqlik" prinsipini rəhbər tutan keşiş Mxitar tələbələrini də bu istiqamətdə ruhlandırmış və milli-humanizm anlayışını milli birliyin təməlində qoymuşdur. Halbuki, Mxitarizm təriqətinin işi dini ünsürlərdən ayrı idi. Bu təriqət millətçilik və azadlıq kontekstində erməni ruhunu dirçəltmək üçün ziyalı ruhanilər yetişdirmək məqsədini həyata keçirməyi nəzərdə tutmuşdu və bu plana uyğun olaraq Venesiyada mxitarizm məktəbləri açılmışdı [6].

Daha sonra mxitarist kahinlər 1834-cü ildə İtaliyanın Padua şəhərində Mxitar Kollecini açdılar və 1846-cı ildə kolleci Parisə köçürdülər. Kollecin məqsədi dini təhsil vermək kimi görünsə də, kollec daha çox erməni gənclərinə Avropa dillərini öyrətməyə xidmət edirdi [12]. 1834-cü ildə Mxitaristlər tərəfindən Padovada yaradılan Muradyan Kollecinin tələbələrinin əksəriyyəti Osmanlı İmperiyasında yaşayan ermənilər, məktəbin məzunlarının əksəriyyəti isə erməni işlərində fəal iştirak etməyən katolik ermənilər idi [2]. Burada oxuyan tələbələr mxitarçılıq intizamı ilə təhsil almış və Osmanlı İmperiyası daxilində erməni islahat hərəkatında iştirak etmişlər.Buna görə də, Mxitarın mahiyyətində insani-mənəvi dəyərlər ön planda görülsə də, onun erməni siyasətinə və milli birləşmələrinə heç bir aidiyyat olmadığını söyləmək mümkün deyil. Əslində birliyin fəaliyyəti və xüsusən də ermənilərin milli tarixi ilə bağlı çoxsaylı araşdırmalara nəzər salsaq, onun yeganə məqsədinin erməni milli şüurunu oyatmaq olduğunu aydın şəkildə görə bilərik. Elə birliyin özü tərəfindən 1784-1786-cı illərdə nəşr olunan, M.Çamçyan tərəfindən yazılan üçcildlik "Erməni tarixi" kitabı da ermənilərdə milli şüur ruhunu canlandırmaq məqsədi daşıyırdı [3]. Erməni millətçiliyini formalaşdıran bu kimi kitablar 19-cu əsrdə tədricən nəşr olundu və 19-cu əsrin birinci yarısından etibarən Osmanlı İmperiyasında erməni məktəblərində şagirdlərə öyrədilməyə başlanıldı [6].

Digər tərəfdən, 1805-ci ildə mxitaristlər tərəfindən nəşr edilmiş erməni İncilinin həm Venesiyada, həm də digər dövlətlərdə yayılmasının oyanışda böyük rolu olduğu bildirilir. Əsl milli şüurun yayılmasında kilsənin əhəmiyyətini zəruri hesab edən birlik erməni gənclərinə həqiqi dini məlumat verməklə bu oyanışı təmin etməyə çalışırdı [15]. Əslində Mxitarın İncil vasitəsilə təbliğat işi 1734-cü ildə başlamışdı. Belə ki, 1737-ci ildə nəşr etdirdiyi "Matta İncilinin şərhləri" adlı əsəri də buna misal ola bilər [7].

Nəzərə almaq lazımdır ki, layihələr arasında yer alan "erməni millətçiliyi doktrinası" istər-istəməz erməni cəmiyyətində iğtişaşlar yaradacaqdı. Çünki təriqətini dəyişən ermənilərdən fərqli olaraq, erməni kilsəsi daha mötədil siyasi situasiyada iştirak etməyi qarşısına məqsəd qoymuşdu və dominant idarələrlə problem yaşamamağa diqqət yetirirdi. Lakin burada vurğulamaq yerinə düşərdi ki, bəzi ermənilər həm mığhitarist təriqətin millətçi layihələrində, həm də məzhəb dəyişdirmə fəaliyyətlərində israrla iştirak etməmiş, hətta bu cür fəaliyyətlərdən narahat olmuşlar [5].

**Tsexakron doktrinası.** Erməni milliyyətçiliyinin təməl ideoloji bazalarından biri də Tsexakron doktrinasıdır. Bəzi tədqiqatçıların fikrincə ideologiyanı konkret şəxslər – ideoloqlar ərsəyə gətirir və təbliğ edir. Tsexakron doktrinasını araşdırarkən, bu cərəyanın əsasını qoyan Qaregin Njdeni erməni milliyyətçiliyinin məhz həmin ideoloqlarından biri kimi dəyərləndirmək mümkündür. Erməni ideoloqu Qaregin Njde 1920-ci illərin sonlarında özünün irqçi Tsexakron doktrinasını hazırladı. Bu doktrinanın

yayılması 1932-1933- cü illərə təsadüf edr. Q.Nijde 1932-ci ildə Sofiyada Xrovk jurnalında "Mənəvi yenilənmənin vəzifələri" məqaləsini dərc etdirir. Njde bildirib ki, erməni irqçilik doktrinasında insanın milli etnik kimliyinin müəyyən edilməsində daşıdığı qan mühüm əhəmiyyət kəsb edir. Bu yanaşmada dəri rəngi və fiziki əlamətlər əsasında insan irqlərinin bir-birindən üstünlüyünə əsaslanan irqçilik fəlsəfəsini mənimsəmiş insanlara üstünlük verilir. "Nəsil, soy hər şeydən üstündür" onlarıb şüarı idi. Ermənistanda bu gün başqa ölkələrdə terrorçu sayılan şəxslər, ilk növbədə, Andranik Ozanyan, Stepan Şaumyan, Dro, Njde, Varujan Karapetyan, Monte Melkonyan, Vazgen Sarkisyan və s. qəhrəman sayılır. Onlar özlərinə bənzəməyənləri aqressiya yolu ilə fiziki cəhətdən məhv etməyə çalışırdılar və bunu gözlərini qırpmadan, insanlara acımadan edirdilər [11].

Erməni ideoloji hərəkatları arasında mühüm yer tutan millətçi cərəyanlar arasında, şübhəsiz ki, andraniklik təlimi də vardır. Erməni ideoloqları andranikliyi erməniliyin və bütün dünyada mövcud olan erməniliyin elementi kimi təqdim edirlər. Tsexakronizm isə daha çox faşizmlə eyni tərəfdə hesab olunur. Maraqlıdır ki, elə həmin illərdə İtaliyada faşizm, Almaniyada isə milli sosializm ideyaları ictimai kütlələrə yayılmağa başladı. Tsexakron anlayışı əslində erməni faşizmi idi və Njde Sovet İttifaqı tərəfindən mühakimə olundu və həbsxanada öldü. Tsexakron nasional-sosialist doktrinasıdır və dünya ermənilərinin türklərə və Türkiyəyə qarşı davranışlarının əsasında Qaregin Njdenin irqçi fikirləri dayanır. Bu doktrina bu gün Ermənistanda hakimiyyətdə olan Respublika Partiyasının əsas ideologiyasını təşkil edir [11].

Bəs, Njde tərəfindən əsası qoyulan və hazırda da erməni cəmiyyəti üçün lokomotiv rolu oynayan Tsexakronizmin mahiyyəti nədir? Mövzu ilə bağlı əhəmiyyətli tədqiqatın müəllifi professor Qafar Çaxmaqlı öz kitabında qeyd edir ki, Tsexakron faşizmlə eyni xüsusiyyətlərə malikdir. Belə ki, Tsexakron təlimini formalaşdıran - "Mən öz soyumu (tsex) tanıyıram, mən öz nəslimə güvənirəm, mənim soyum Allaha ən yaxındır, ali irqdir, mən öz cismimdə Tsexarakonu daşıyıram" kimi ifadələri buna misal göstərmək olar. Müəllif müasir dövrün radikal erməni milliyyətçisi olan Zori Balayanın Qarabağda keçirilən bir toy məclisində söylədiyi "Allah Qarabağı qoruyacaqdır, çünki Allahın özü də erməni və qarabağlıdır" cümlələrini qeyd edərək yazır ki, bu faşizmin ifrat formasıdır və o da sələfi Njde kimi erməni soyunu "ari -ali irq" hesab edir, hətta bir az da irəli gedərək Allahın da erməni olduğunu iddia edir [4,s.18-19]. Erməni cəmiyyətinin mənimsədiyi milliyyətçilik ideyaları irqçilik doktrinası kimi qəbul edilə bilər. İrqçilik ideologiyasına görə bir insanın daşıdığı qan onun milli-etnik kimliyini təyin edir. Buna nəzərən hər bir erməni hesab edir ki, o başqalarından fərqlidir və ya üstündür. "Erməni ari irqi", erməni ariliyi" ideyası Artsruni, Garegin Njde, Andranik kimi ideoloqlar tərəfindən ortaya atılmış və elmi dayaqları olmamasına baxmayaraq, hətta əksər elm adamları tərəfindən də dəstəklənmişdir. Başqa toplumlara qarşı kin, nifrət bəsləmək, səbəbsiz duyulan qəzəb, yəni irqçi radikal münasibət erməni milliyyətçiliyinin əsas xüsusiyyətinə çevrilmişdir [4,s.48-50].

Erməni millətçiliyinin ilk nəzəri banilərindən olan Grigori Yeremeyeviç Artsruninin fikirləri onun tarixi və ideoloji əsaslarının öyrənilməsində əhəmiyyətli mənbə hesab olunur. Artsurini tərəfindən Tiflisdə nəşr etdirilən "Mşak"(Rəncbər) adlı qəzet Osmanlı tabeliyindəki erməniləri üsyana təşviq edən maarifləndirici vasitələrdən biri idi. Müəllifi olduğu əsərlərində Artsruni türkləri, kürdləri,müsəlmanları alçaldır, ələ salır, erməniləri onlardan üstün millət kimi görürdü. 1879-cu ildə Tiflisdə iş adamları klubunda çıxış edən Artsuninin səsləndirdiyi - "Ermənilər, qonşu millətlərin hamısından, hətta xristian olanlardan da fərqlidir və mədəni qabiliyyətləriylə seçilirlər. Digər xalqlar da nəhayət bunu başa düşərək erməniləri özlərinə rəhbər seçəcəklər. Çünki ermənilər öz ağlı və qabiliyyəti ilə onların hamısından üstündürlər"- kimi fikirlərində onun irqçi ideyaları açıq-aşkar özünü büruzə verir [4,s.48-50].

**Millətçiliyin Şərq-Qərb modelləri və Ermənilər.** Erməni milli ideologiyasını millətçiliyin "Şərq modeli" çərçivəsində təhlil edərkən A.Smit tərəfindən əsaslandırılan modeli erməni nasionalizminə aid etmək olar. Bu modeldə ümumi əcdada bağlılıq (Hayk), həmçinin ermənilər tərəfindən "qızıl əsr" (mifoloji təsəvvürə görə 1,5 min illik tənəzzüldən sonra gələcək inkişaf dövrü) adlandırılan dövrə duyulan həsrət, sahib olduqları torpaqların itirilməsinə görə yaranan kədər hissi və s. kimi elementlər özünü göstərir. Bu milliyyətçi ideyalar XIX əsrin sonlarında, XX əsrin əvvəllərində bir qrup erməni yazıçı, publisist, din adamları və başqaları tərəfindən təsvir olunmuşdur. Bunlara nümunə kimi Raffi, Leo, Mkrtiç Xrimyan və s. qeyd etmək olar. Bu ideologiyanı təbliğ edən "Mşak" qəzeti, "Hnçak", "Droşaq" jur-

nalı, Berlində nəşr olunan "Hayastan" qəzeti kimi kifayət qədər mətbuat orqanları da fəaliyyət göstərirdi [4,s.31-34].

Erməni milli ideologiyalarının bir çoxunun əsasında Xristian dininin elementləri hiss olunur. Lakin Njde erməniçiliyi, hətta xristianlıqdan da üstün hesab edirdi. Belə ki, günümüzdə də bu yanaşmanın tərəfdarları az deyil. Professor Q.Çaxmaqlı "Erməni faşizmi" adlı kitabında yazır ki, günümüzdə də bir neçə min erməni Vardavar bayramını qeyd etmək üçün İrəvan şəhəri yaxınlığında, təxminən 32-ci kilometrliyində yerləşən Qarni məbədinə toplaşır və bununla demək istəyir ki, əsl ermənilər onlardır və dinləri də xristianlıq yox, məhz bu dindir. Bu bayramı Xristian Təqvimlərinə daxil etsələr də bu təriqət sahibləri özləri üçün ayrıca müqəddəs kitab da yaradıblar. Vardavar bayramının aktiv iştirakçılarından biri olan "Erməni–Ari ordeni" adlı ultramilliyyətçi təşkilatın rəhbəri Armen Avetisyan daha da irəli gedərək erməniləri xristianlıqdan imtina etməyə, həmçinin xalqı yəhudiləri məhv etməyə səsləmiş və bu cəhdlərinə görə 2005-ci ildə 3 il həbs cəzası almışdır. Avetisyan və onun digər tərəfdarları üzərində erməni irqçi ideoloq Garegin Njdenin rəsmi əks olunmuş qara köynəklər geyinirmişlər. Garegin Njde türklərə və hətta bolşeviklərə qarşı mübarizə aparmış və erməni milliyyətçiliyinin əsaslarını qoyan ideoloq olmuşdur. Erməni İnqilabçı Federasiyası-Daşnaksütyun, o cümlədən Ermənistan Respublikaçılar Partiyası da daxil olmaqla bir çox siyasi təşkilatlar öz platformasını məhz onun ideyaları əsasında müəyyənləşdirmişdir [4,s.31-34].

Bundan başqa erməni milliyyətçiliyini etno-simvolik nəzəriyyə çərçivəsində təhlil etmək də faydalı olardı. Belə ki, etno-simvolik nəzəriyyə millətçiliyi təhlil edərkən etnik mənşəyə və mədəniyyətə önəm verir. Keçmişdən gələn miflər, simvollar və adətlər bugünkü millətçiliyin məzmununu müəyyən edir. Həmçinin, etno-simvolik nəzəriyyə bizə kollektiv xatirələrin, dəyərlərin, miflərin və simvolların emosional gücünü anlamağa kömək edir. Ermənilər öz tarixi keçmişindən və xatirələrindən istifadə edir, etnik kimliklərinə, mədəniyyətinə, dininə, xristianlığına önəm verirlər. Bütün bunlar erməni millətçiliyinin simvollarıdır. Ermənilər bu simvollardan erməni millətçiliyinin təsirini artırmaq üçün istifadə edir, bu yolla tarixi irslərini və etnik kimliklərini qoruyurlar. Məsələn, din bir mifdir və ermənilər üçün din, xüsusən də kilsə son dərəcə vacibdir. Kilsə birliyi təmin edir və erməni millətçiliyini aşılamaq üçün bir vasitədir. Hətta ermənilər özlərini xristianlıqla eyniləşdirir və Ermənistanın adının İncildə yazıldığını iddia edirlər [13].

Digər tərəfdən, millətçilik üçün başqa bir simvol mədəniyyətdir. Onlar tarix boyu öz mədəniyyətlərinə qarşı təzyiqlərin olduğuna inanmışlar, buna görə də mədəni dəyərlərinə daha çox önəm verir, ondan simvol və irs kimi istifadə edirlər.

Erməni millətçiliyi modernist və primordializm nəzəriyyələrinin bir nümunəsi hesab oluna bilməz, çünki ermənilərin formalaşdırdığı identiklik mifoloji xüsusiyyətlərə və özlərinin qeyd etdiyi kimi təsvir etsək, daha qədim dövrlərə əsaslanır. Bu baxımdan, etno-simvolik nəzəriyyəsi çərçivəsində erməni millətçiliyinin təhlili daha doğru seçim olar. Belə ki, onlar öz milli ideologiyalarında etnik elementlərdən, simvollardan, miflərdən, tarixi keçmişdən və xatirələrdən istifadə edirlər. Ermənilər üçün ortaq din, o cümlədən xristianlıq, ortaq etnik-mədəni ünsürlər və tarixi xatirələr qədim zamanlardan bu günə qədər bütün tarixdə erməni kimliyini yaradan əsas amillərdir.

**Erməni milliyyətçiliyi və etno-simvolik nəzəriyyə.** Etnos psixoloji özünəməxsusluğu olan özünü bütün digər kollektivlərlə müqayisə edən insan kollektividir. İngilis tədqiqatçısı A.Smit etnik qrupu "ümumi mənşə haqqında əfsanəni, tarix və mədəniyyəti bölüşdürən, xüsusi ərazi və həmrəylik hissi ilə bağlı olan qruplar" kimi izah edir. Smit etnik qrupu müəyyən edən altı əlaməti təklif edir: qrupun özünüdərki, mənşə haqqında əfsanə, tarix, mədəniyyət, ərazi və həmrəylik hissi. Lakin etnik qrupun mənşəyi haqqında mif çox vaxt həqiqətdən üstün hesab olunur. Bu etnik qrupun öz identikliyini müəyyən edərkən formalaşır. Belə ki, yaşadığı əraziyə tarixi bağlılığı olmayan, qədim mədəniyyətə (dil, din, adətlər, folklor, ənənəvi geyim, qida və s) və həmrəylik hissinə yetəri qədər sahib olmayan qruplar bunu süni şəkildə miflər və əfsanələr vasitəsilə formalaşdırmağa çalışırlar. Çünki bu əlamətlər bir etnosu digərlərindən fərqləndirən, etnik identikliyin müəyyən olunmasında əsas şərtlər və psixoloji ehtiyacdır. Həmçinin xüsusilə qeyd olunmalıdır ki, etnik həmrəylik hissi böhran və xarici təhdid şəraitində aktuallaşır. Müəyyən bir ərazidə tarixən yaşamış, köklü mədəniyyətə və dəyərlərə sahib olan, dövlətçilik tarixi olan və vahid ərazidə ortaq tarixi inkişaf keçmiş etnik qruplar və xalqlar üçün bu həmrəylik hissi təbii şəkildə formalaşır.

A.Smitin "etno-simvolik" yanaşması millətçili-

yin mahiyyətində insanların əslində nəyə inandıqları və hansı ideyaların ətrafında səfərbər olduqlarını anlamaq üçün qiymətli töhfə verir. O, milli identikliyin formalaşmasında üç meyarı irəli sürür:

• Birincisi, miflər və simvollar, o cümlədən uydurulmuş ortaq adət-ənənələr;

• İkincisi, insanların özlərini ortaq qrupun bir hissəsi kimi təsəvvür etməsi və ya "xəyali cəmiyyətlər";

• Üçüncüsü, sosial-struktur reallıqların ideoloji proseslərə təsirini müəyyən edən amillər [13].

Etno-simvolik nəzəriyyə çərçivəsində erməni milliyyətçiliyini tədqiq etdikdə yuxarıda qeyd olunan üç meyar ayrı-ayrılıqda və qarşılıqlı əlaqədə özünü büruzə verməlidir.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. Aukerian Haroutiun, "A Brief Account of the Mechitaristican Society Founded on the Island of St. Lazaro", 1835, p 23-41.*

*2. Boğos Levon Zekiyan, Ermeniler ve Modernite, İstanbul 2002, s. 69.*

*3. Chamich Father Michael, "History of Armenia: From B. C. 2247 to the Year of Christ 1780, Or 1229 of the Armenian Era", Tr. from the Original Armenian, by Johannes Avdall, 1. Cilt.*

*4. Çaxmaqlı Qafar, Erməni faşizmi, Bakı-2017, s.192.*

*5. Davut Kılıç, 'İstanbul Ermeni Patrikhanesi'nin Bağımsızlık Hareketlerine Yönelişi (1850-1896)',Osmanlı, Ankara 1999, II, s. 153.*

*6. Erdal İlter, Ermeni Kilisesi Ve Terör, Ankara 1996.*

*7. Frederick Deland Leete, Christian Brotherhoods, London 1912, s. 179.*

*8. Harcutiun Aukerian, A Brief Account of the Mechitaristican Society, Venice 1835.*

*9. Kevork Pamukciyan, Zamanlar, Mekanlar, İnsanlar, İstanbul 2003, s. 322.*

*10. Külekçi Cahit, İslam Tarihi'nde Ermeniler ve Ermenistan Fetihleri, İstanbul 2011.*

*11. Mehdiyev Çakmaklı Gaffar, Ermeni Mono Etnik Milliyetçiliğinin Doğurduğu Öğretiler: Andranikizm ve Tseğakronizm, Yeni Türkiye dergisi, Eylül-Aralık 2014, yıl 20, sayı 61. s.3180.*

*12. Mesrovb J. Seth, History Of The Armenians In India, Delhi 1988, s.149.*

*13. Panossıan Razmık, The Past as Nation: Three Dimensions of Armenian Identity, EBSCO Publishing, 2003.*

*14. Richard Robert Madden, The Turkish Empire: in Its Relations with Christianity and Civilization, London 1862, II, 140.*

*15. Robert Curzon, Armenia, New York 1854, s. 208.*

*16. Simeon, Tarihte Ermeniler, Trc: Hrand Andreasyan, İstanbul 1999, s. 61- 77.*

*17. Soukias Somalean, Quadro Della Storia Letteraria di Armenia, Venezia 1829, s. 179, 180.*


## XÜLASƏ


Erməni milliyyətçiliyinin formalaşmasını araşdırarkən bir sıra tarixi faktlarla yanaşı, onun ideoloji əsaslarına da nəzər yetirilməlidir. Belə ki, erməni milliyyətçiliyinin bir ideologiya kimi inkişafında əhəmiyyətli rolu olan bir çox cərəyan və etno-psixoloji yanaşmalar mövcuddur. Bu məqalədə erməni milliyyətçiliyinin mahiyyətini və xüsusiyyətlərini özündə əks etdirən ideoloji konsepsiyaların bəziləri tədqiq olunur. Müəllif mxitarizm, tsexakronizm, andranikizm kimi cərəyanları araşdırır. Bununla yanaşı, məqalədə Njde ideologiyası, "Böyük Ermənistan" iddialarının mahiyyəti vurğulanır, eyni zamanda erməni milliyyətçiliyi etno-simvolik nəzəriyyə çərçivəsində təhlil olunur.



**Açar sözlər:** *erməni milliyyətçiliyi, ideologiya, mxitarizm, tsexakronizm, andranikizm, etno-simvolik nəzəriyyə.*



**Фидан Халилова,**
***Докторант кафедры международных отношений и внешней политики Академии Государственного Управления при Президенте Азербайджанской Республики***
***e-mail: phd.fidan.khalilova@gmail.com***
***ORCID 0000-0002-5874-119X***


## ИДЕОЛОГИЧЕСКИЕ ОСНОВЫ АРМЯНСКОГО НАЦИОНАЛИЗМА

### Резюме


При исследовании формирования армянского национализма, вместе с историческими фактами, нужно рассмотреть и его идеологические основы. Так как существуют множества направлений и этнопсихологических подходов, имеющих значительную роль в развитии армянского национализма как идеологии. В данной статье анализируются некоторые из идеологических концепций, отражающих сущность и особенно-

сти армянского национализма. Автор исследует такие направление, как мхитаризм, цехакронизм, и андраникизм. Вместе с тем, в данной статье подчёркивается сущность идеологии Нжде, претензий «Великой Армении», в то же время армянский национализм анализируется в рамках этносимволической теории.

**Ключевые слова:** *армянский национализм, идеология, мхитаризм, цехакронизм, андраникизм, этносимволическая теория.*

**Fidan Khalilova,**
***Ph.D. candidate, Department of International Relations and Foreign Affairs,***
***Academy of Public Administration under the President of the Republic of Azerbaijan***
***e-mail: phd.fidan.khalilova@gmail.com***
***ORCID 0000-0002-5874-119X***

**IDEOLOGICAL FOUNDATIONS OF ARMENIAN NATIONALISM**

**Summary**

While researching the formation of Armenian nationalism, it is necessary to consider its ideological foundations as well as historical facts. There are many orientations and ethno-psychological approaches that have a significant role in the development of Armenian nationalism as an ideology. This article analyses some ideological concepts that reflect the essence and characteristics of Armenian nationalism. The author examines such movements as mekhitarism, tsekhakronism and andranikism. At the same time, this article emphasises the essence of Nzhdeh's ideology and the claims of ‘Great Armenia’, while Armenian nationalism is analysed within the framework of ethnosymbolic theory.

**Keywords:** *Armenian nationalism, ideology, mekhitarism, tsekhakronism, andranikism, ethnosymbolic theory.*